**UDK 101. 01** **səh. 25-33**

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV İRSİ BİLİK CƏMİYYƏTİNDƏ SÜLHÜN TƏMİNATÇISI KİMİ: MÜNAQİŞƏLƏRƏ DİALOQ KONTEKSTİNDƏN NƏZƏRİ YANAŞMA

**Şölət Zeynalov**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
*sholet@mail.ru*
https://orcid.org 0000–0003–2509–1159

**Xülasə**. Məqalə müasir dünyada baş verən regional ziddiyyətlərin, münaqişə və müharibələrin, dialoq mədəniyyəti kontekstində nəzəri tədqiqinə həsr olunmuşdur. Tədqiqatda Azərbaycanın dünyaya təqdim etdiyi sülh və təhlükəsizlik paradiqması – bilik cəmiyyətində ziddiyyətlərin həlli istiqamətində bir proqram olduğu vurğulanır, ölkəmizin xalqlar, dövlətlər və cəmiyyətlər arasından baş verən müxtəlif münaqişələrin həllində həyata keçirdiyi dialoq “formulunun” əvəzsizliyi diqqətə çatdırılır. İşdə nəzəri fikrə istinadən qeyd edilir ki, müasir münasibətlər sistemində baş verən ziddiyyətlərin həllı istiqamətində cəhdlər modern cəmiyyətin dialoq kontekstində strateji hədəfi olmalı, onun həlli istiqamətində tədqiqatlar intensivləşməlidir.

**Məqsəd:** Bilik cəmiyyətində münaqişələrin həlli və sülhün əldə olunması probleminə diqqəti çəkmək.

**Metodologiya:** Məqalə - elmi metod, müqayisəli təhlil, empirik təsvir, tarixi analiz metodları ilə tədqiq olunur.

**Elmi yenilik:** Modern cəmiyyətin ziddiyyətlər toplusuna dialoq mədəniyyəti kontekstindən yanaşma.

**Açar sözlər:** bilik, münaqişə, müharibə, nəzəri yanaşmalar, modern, sosial ziddiyyətlər, dialoq, sülh.

**Giriş:** XXI əsr ədəbiyyatda elmi-texniki inkişaf, texniki tərəqqinin yaratdığı üstünlüklər, informasiyanın inklüzivliyi, “zamanın” sürətlənməsi, “məkanın daralması”, mədəniyyətdə sərhədlərin “silinməsi”, internet əsrinin yaratdığı yeni reallıqlar, süni intellektin iqtisadiyatda, məişətdə, sənaye və b. sahələrdə genişlənməsi kimi xarakterizə olunsa da, bu əsrin spesifik xüsusiyyətləri təsdiq edir ki, “tarixi problem” kimi xarakterizə olunan sivilizasiyanın “qürubu”, “katastrofizmi”, sonsuz ziddiyyətləri daha da genişlənməkdədir. Lakin ümid həm də onadır ki, sadalanan çoxşaxəli problemləri müasir modern cəmiyyət sona kimi həll etmək iqtidarında olmasa da, – “bilik və modernitənin” inkişafı kontekstində – baş verən ziddiyyətlərin qarşılıqlı anlaşma şəraitində “aydınlaşması işində” dialoq metodu kimi qədim tarixə malik bir “terapiya” üsuluna da malikdir. Fakt budur ki, tarixən bu metod vasitəsilə bəşəriyyət öz mövcudluğunu davam etdirmiş, münaqişə və müharibə edən tərəflər, qarşı-qarşıya dayanan cəmiyyətlər, xalq və identikliklər son anda ona apellyasiya etmişlər. Təsadüfi deyildir ki, münasibətlərin tənzimlənməsi və konsensusa gəlmək işində, məhz bu metodun alternativsizliyini bu gün nəzəri fikir birmənalı təsdiq etməkdədir. Yəni, söhbət ondan gedir ki, münaqişə, müharibə, konfliktlər və sair seriya ziddiyyətlər yalnız bu metodla – dialoq metoduyla öz həllini tapa bilər. Lakin təəssüf ki, indi bilik cəmiyyətində bu metod unudulmaqdadır; Sivilizasion, hərbi, siyasi, iqtisadi üstünlüklər fonunda ona biganəliklər nümayiş etdirilməkdədir.

Məqalənin əsas ideyası ondadır ki, qeyd olunan silsilə ziddiyyətlərə baxmayaraq, faktiki olaraq Azərbaycan Respublikasının siyasi rəhbərliyi uzun illər bu strategiyadan – dialoq və dialoq mədəniyyəti paradiqmasından çıxış edərək, həm regional problemlərin həlli işində, həm də qlobal miqyaslı əməkdaşlıq və təhlükəsizlik prinsiplərində daima dialoq metoduna müraciət etmiş, onun sayəsində beynəlxalq və regional əməkdaşlıqlara, iqtisadi inkişafa, sülhə və təhlükəsizliyə töhfələr

vermişdir. Bütün bu strategiyanın mehvəri məhz Ulu öndər Heydər Əliyev siyasətində təsbit olunmuş və hazırda münaqişənin həlli istiqamətində böyük Zəfər qazanmasına və regional lider olmasına baxmayaraq, İ.Əliyevin dövlətçilik fəlsəfəsində konsensusun təminatı işində əsas strategiya kimi əks olunmaqdadır. Bu onu təsdiq edir ki, müharibə və münaqişə heç zaman Azərbaycanın prioriteti olmamış və belə də qalmaqdadır. Lakin bəzi aqressiv və destruktiv təfəkkürdən çıxış edən dövlətlər, təəssüf ki, bu prinsipə əməl etmirlər və ona görə də Yer üzündə müharibə və münaqişələrin böyük sülhlə əvəz olunması problem olaraq qalır. Məqalə bu xüsusda işlənmişdir.

**1. Rasional və bilk cəmiyyətində kommunikasiya problemi – nəzəri interpretasiya.** Girişdə irəli sürülən problemdən çıxış edərək bu tezisi qəbul edirik ki, həqiqətən də, qeyd olunan qlobal ziddiyyətlər müasir sivilizasiya və mədəniyyətin təbiətindən gələn danılmaz substantiv faktlardır və ola bilsin ki, onların “dəf” edilməsi bəşəriyyətin, müasir tarixin ən ciddi problematikası olaraq daima gündəlik məzmun kimi davam edəcəkdir. Məsələ ondadır ki, problemə digər bir kontekstdən yanaşdıqda filosoflar izah edir ki, hər bir mədəniyyətin**,** “sivilizasiyanın əsasında xüsusi bir “düşünən mövcudluq”, Dasien dayanır” [2, s. 14 ]. Bu, tarixdir və tarixin interpretasiyası sübut edir ki, mədəniyyətlərin, sivilizasiyaların və hətta identikliklərin də özünüreallaşdırma problematikası daima cəmiyyətin həyati problemi kimi, onun dialektikasını təşkil etmiş və edəcəkdir. Yəni, elm sübut edir ki, sivilizasiyaların, mədəniyyətlərin iqtisadi, siyasi, ideoloji və digər hər bir substantiv identikliklərin də mövcudluq uğrunda mübarizəsini “modern cəmiyyətdə” “təbii” hesab etməliyik. Problemə kommunikativ refleksiya kontekstindən yanaşdıqda “tarix həm cəmiyyətin rasionallaşdırılması, həm məhsuldar qüvvələrin [vasitələrin və onların seçim prosedurlarının rasionallaşdırılması yolu ilə] inkişafı, həm də qarşılıqlı anlaşma və dialoqa yönəlik fəaliyyətin rasionallaşdırılması prosesi kimi təsvir edilə bilər” [7, s. 82]. Bu onu sübut edir ki, rasionallaşmaya yanaşmanın çoxvektorlu olmasına baxmayaraq, “rasionallaşma – kommunikasiyanın strukturuna hopmuş zorakılıq münasibətlərinin aradan qaldırılmasıdır” [7, s. 82]. Deməli, müasir kommunikasiyanı rasonallaşmadan kənarda təsəvvür etmək mümkün olmadığı kimi, rasionallaşmanı da kommunikasiyasız təsəvvür etmək olmaz. Əks təqdirdə, ifrat rasionallaşma cəmiyyəti ekzistensial, ontoloji, etik və mənəvi dəyərlərdən uzaqlaşdıra bilər**.** Ona görə də biz qəbul etməliyik ki, modern cəmiyyətin inkişaf probleminin strukturu bilavasitə idrak və biliklə bağlı olsa da, onun mənəvi hüdudları dialoqa, dialoq mədəniyyətinə, kommunikasiyaya açıqlığı ilə bağlıdır. “Modern cəmiyyətin” əsas problemi ondadır ki, o, daima inkişafda olan elmi-texniki tərəqqi ilə bağlıdır; o, daima hərəkətdə, “dialektik təkamüldədir”, bilik onun əsas meyarıdır. Lakin onun əsas spesifik xüsusiyyətləri göstərir ki, dialoji prosesə, kommunikativ təfəkkürə açıq olmayan cəmiyyətin “qürubu” qaçılmaz zərurətdir. Aydındır ki, “...modern heç zaman tamamlana bilməz, çünki kommunikasiya modelinin dəyişdirilməsi hər zaman mümkündür” [7, s. 42]. Professor İ.Məmmədzadə qeyd edir: “Rasionallıq tiplərinin müəyyən mənada nisbiliyini etiraf edən Y.Habermans eyni zamanda idrak meyarlarının universallığını da qəbul edir. Universallıq ondadır ki, zorakılıqdan xilas arayan insanın “emansipasiyon marağı yalnız “əsl interaksiya” məqamında gerçəkləşə bilər” [7, s. 82 ]. Bütün bunlar faktdır, lakin problem ondadır ki, indi elmi-texniki tərəqqi əsrində insanın bütövlükdə intellektual səviyyəsi, biliyi, yaratdığı texniki vasitələr elə bir həddə gəlib çatıb ki, onun *“destruktivliyi”* [8] sözün həqiqi mənasında biliyin, süni intellekt və elmin inkişafı kontekstində hansısa “terapevtik” vasitələrlə dəf edilməlidir.

Qeyd edilənlər nəzəri problematikadır, lakin onun empirik mənalandırılması bilavasitə gerçəkliklə bağlıdır. Gerçəkliyin mənzərəsi isə tamamilə başqadır və hətta adi şüur da dərk edir ki, ziddiyyətlərin “dəf” edilməsi elə də asan deyildir. Fakt budur ki, istər fərdlərin, istər dövlətlər və cəmiyyətlərin həyatında baş verən proseslər sübut edir ki, *birincisi,* hər yerdə siyasi, iqtisadi, sosial və coğrafi konfliktlər genişlənir; *ikincisi,* mədəniyyətdə, identiklik və mənəvi dəyərlərdə, birgəyaşayış və huquqi prinsiplərdə ciddi deformasiyalar; *üçüncüsu,* insanın total şəkildə ruhi və ekzistensial böhranı; *dördüncüs*ü, dünya nizamımın, beynəlxalq hüququn paradiqmalarındakı böhranlar; *beşincisi,* antropogen fəaliyyət nəticəsində insan da daxil olmaqla, yer üzündə həyatın və digər canlıların milyon illik mövcudluğuna – bəşər tarixinin yarandığı dövrdən bəri heç zaman olmayan təhlükələr pik nöqtəyə çatmaqdadır. Alman filosofu M.Haydeggerin qeyd etdiyi kimi, bu

*“destruktiv”* fəaliyyəti önləmək və ya dayandırmaq üçün, ola bilsin ki, bizim “şüurda”, “hüquqda”, “nizamda”, “loqosda”, demokratiya və s. də daha mükəmməl və birliyi, dialoqu tətbiq edən təfəkkür modellərimiz – vasitələrimiz mövcud deyildir, bununla bərabər, həm də dialoq aparmaq imkanlarımız da mövcuddur. Bu onu sübut edir ki, bizim demokratiya və liberal dəyərlər kimi təsbit etdiyimiz anlayışların təməlində ciddi problemlər mövcuddur. “Modernitik” hərəkatı Qərb şüuru bir cür, Şərq təfəkkürü başqa cür, açıq və sekulyar cəmiyyətlər bir, terrorizm və mifik tarixi keçmişə inamı olan cəmiyyətlər başqa formada dərk edirlər. Demokratiya, hüquq, birgəyaşayış, beynəlxalq nizam, tolerantlıq və multikultural ənənələr və dialoq bir tərəfdən “bilik” cəmiyyətin əsas meyarı kimi çıxış etsə də, digər tərəfdən də onların *“şüuraltı”* ziddiyyətlərini də ortaya çıxarmış olur. Məsələn, vaxtilə M.Qandi bu praktik əsasdan çıxış edərək qeyd edirdi ki,“...gerçək demokratiya yalnız qeyri-aqressivliyin məhsuludur. Kürəsəl birlik yalnız qeyri-aqressivlik əsasında qurula bilər. O zaman kürəsəl miqyasda da aqressevliyə yol verilməməlidir” [ 6, s. 190 ]. Göründüyü kimi, yuxarıda qeyd etdiyimiz bəşəri problemləri insan həll edə bilməsə də, onun əsas hədəflərindən biri “modern cəmiyyətdə” qeyri-aqressivliyi, dialoqu, dialoq mədəniyyətini, sülhü təbliğ etmək olmalıdır. Hər halda bilik dialoq və sülhü inkar etmir, əksinə, onu – dialoqu daha da rasional edir.

**2. Dialoq və sülh problemi – dünya nizamı problematikası.** Fakt burdur ki, ən adi səviyyədə müşahidə apararkən görürük ki, hazırda bütün coğrafiyalarda siyasi, iqtisadi, coğrafi, milli, ideoloji, dini, məzhəbi və s. konfliktlər günbəgün genişlənir, hər yerdə dövlətlərarası sülh və təhlükəsizlik normaları mütəmadi olaraq pozulur, texniki tərəqqinin, elmin tətbiqi ilə əlaqədar olaraq etnik, milli, dini, coğrafi çəkişmələr öz xarakterini dəyişsə də, onlar daha çoxaspektli münaqişələr şəklində daha da hibridləşərək təzahür edirlər. Bütün bunlar fəlsəfi təfəkkürün problematikası kimi qavranılsa da, qeyd etmək lazımdır ki, müasir “praktik insan” – özgələşmiş və ya “mifik keçmişə yönəlik” şüurla yaşayan “modern” insan üçün elə bil ki, əvvəlki dəyərlər öz məzmun və mahiyyətini itirmişdir. İnsan – ideologiya, dövlət, cəmiyyət daha çox “mənimsəmək”, başqalarının resurslarını, ərazilərini zəbt etmək və amirlik xəstəliyinə tutulduğundan tendensiyanın katastrofizmi şüur tərəfindən küll halında dərk edilmir. Məsələn, sadə bir misal, 6 fevral 2023- cü ildə Türkiyənin cənub-şərq bölgələrində baş vermiş qlobal fəlakətə – zəlzələyə bəzi dövlətlərin daxilindən (Fransa və Ermənistandan) sevinc reaksiyaları gəldi. Bu onu sübut edir ki, müasir insanın müharibə, münaqişə, epidemiyalar və zəlzələlərə, bir sözlə, təbii fəlakətlərin də daxi olduğu bəşəri fəlakətlərə davranışları adekvat deyil və ola bilsin ki, məhz bu total ziddiyyətlər fonunda, həqiqətən də, sivilizasiyanın “qürubu” qaçılmaz olacaqdır.

Ədəbiyyatda böyük stabillik və siyasi nizamdan bəhs olunarkən əksər mütəxəssislər Yeni dünya nizamının təməl prinsiplərinin 1648-ci ildə bağlanmış Vestfaliya anlaşmasından başladığını qeyd edir və müasir siyasi, iqtisadi, ictimai proseslərdə əldə edilmiş tərəqqidə bu müqavilənin şəksiz rolunu qiymətləndirərək onu – qlobal institutlaşma aktını modern cəmiyyətin ilkin təməl prinsiplərindən biri kimi qəbul edirlər. Siyasi, iqtisadi, hüquqi və s. “modernitik” təfəkkürdə o, – “Vestfaliya sülhü ilk müasir diplomatik konqresin nəticəsi hesab olunur. O, Avropada milli suverenitet konsepsiyaya əsaslanan yeni qaydaların başlanğıcı” [9] kimi qəbul olunur və bununla bu sülhün bəşəri dialoji əsaslarına söykənilərək dünya nizamında bir “modernitik” ictimai əxlaqın təməllərinin qorunmasına çalışılır. Lakin həmin dövrdən dörd əsr keçməsinə baxmayaraq və sonsuz sayda müharibələrin və etnik münaqişələrin analizi, o cümlədən qlobal deformasiyalar göstərir ki, dünyada Böyük Sülhün əldə edilməsi işi ciddi əngəl olaraq qalmaqdadır. Bu barədə istər KİV, istər siyasi xadimlər və elm adamlarının çıxışları silsilə xarakterli olsa da, nəzəri interpretasiyalar onu göstərir ki, nəticələr qətiyyən qənaətbəxş deyildir. Məsələn, hazırda BMT-nin Baş katibi Antonio Quttereş və əksər dünya liderləri və siyasi, dini, ictimai xadimlər mütəmadi olaraq pandemiyanın nəticələrindən, Ukrayna və Rusiya Federasiyası arasında baş verən müharibə və digər qlobal böhranların artıq dünyada ciddi fəlakətlər törədə biləcəyindən, iqlim və ərzaq böhranının son dərəcə qlobal təhdidə çevriləcəyindən və s. problemlərdən demək olar ki, bütün çıxış və nitqlərində bəhs edirlər, – o cümlədən, sülhün bütün istiqamətlərdə əldə edilməsi problemindən. Lakin qısa ifadə etsək, son 50 ilin statistikası sübut edir ki, problemlər heç də azalmır, əksinə, bir və ya bir neçə münaqişələr “postmünaqişə” termini ilə “mükafatlandırılsa” da, yeni-yeni münaqişələr də gündəmi zəbt edir. Bu isə bir daha onu təsdiq edir ki, istər BMT-nin irəli sürdüyü qlobal “Davamlı İnkişaf

Konsepsiyası”, istərsə də onlarla digər beynəlxalq təşkilatlar və onların problemlərin həlli istiqamətində irəli sürdükləri proqram və layihələr, Yer üzündə öz həllini tapmaq üçün prespektivdə insanlarda bir əhəmiyyətli ümid yaratsa da, onların həyata keçirilməsi işi məhz elə praktiki və nəzəri problem olaraq qalır. Qısa şəkildə ifadə etsək, vəziyyət belədir: istər beynəlxalq təşkilarların, istərsə də elm və siyasət, dövlət və din xadimlərinin irəli sürdükləri sabitlik və birlik ideyaları nəzəri olaraq tam doğrudur, lakin onların həyata keçməsi üçün praktiki şablonlar, “terapiya üsulları”, yəni “ideal” tarixi təcrübə mövcud deyildir. Məsələ ondadır ki, müasir münasibətlər sistemində ciddi bir inamsızlıq və etimadsızlıq, müxtəlif “izm”lərlə, ideologiyalarla, siyasi maraqlar və ziddiyyətlərlə yüklənmiş bölgülər sistemi mövcuddur. “Buraya çox vaxt etnik-milli və dini müstəvidəki problemlər də əlavə olunur”. “Ənənəvi dostluq” və “ənənəvi düşmənçilk” münasibətləri çox vaxt üçüncü ölkə ilə münasibətlərə də təsir edir. Belə ki, üçüncü ölkələrin ənənəvi dost ölkəylə konfliktə girməsi və ya ənənəvi düşmənlə dostluq münasibətləri qurması münasibətlərdə gərginlik yaradır və sülhün dayanıqlıq dərəcəsi azalır (kövrəklik dərəcəsi artır)” [5 , 246 ]. Hal-hazırda postkonflikt dövründə belə, Fransanın, İran və Hindistanın təcavüzkar Ermənistana verdiyi dəstək də bir daha bunları əyani şəkildə təsdiq etmiş olur. Keçmişin – tarixi təcrübənin bizə verdiyi əsaslardan çıxış edərkən söyləmək mümkündür ki, məsələ ideyaların toqquşmasından, ideologiyaların qarşılıqlı mübarizəsindən gedərkən dərin və çoxaspektli fəlsəri analizlər aparılmadan qeyd olunan problemlərin həllindən danışmaq ola bilsin ki, bəzi məqamlarda heç mümkün də deyildir.

Biz bunu əyani olaraq keçmiş Qarabağ münaqişəsinin 30 illik inkişaf dinamikasında aydın şəkildə gördük. Faktiki olaraq Azərbaycan həm regionda, həm də dünyada apardığı sülh, təhlükəsizlik, qonşuluq və humanizm strategiyasından çıxış etməsinə baxmayaraq, istər beynəlxalq təşkilatlar, istərsə də ictimai təşkilatlar səviyyəsində Ermənistan-Azərbaycan münaqişəsinin həlli dinc, dialoq və qarşılıqlı etimad yoluyla deyil, erməni destruktivizmi səbəbindən müharibə yoluyla başa çatdı. Şübhəsiz, bu işdə beynəlxalq təşkilatların, xüsusilə Qərbin də ciddi məsuliyyəti mövcuddur. Vaxtilə, Ulu öndər H.Əliyev Ermənistanın təcavüzünə göz yuman beynəlxalq təşkilatlara xitabən, onların sülhün əldə edilməsi işində birtərəfli mövqelərini tənqid edərək qeyd edirdi: “Həqiqət ondan ibarətdir ki, Ermənistan Azərbaycana təcavüz edibdir, Ermənistanın silahlı qüvvələri ərazimizin 20 faizini işğal edibdir və işğal olunmuş ərazilərdən bir milyon Azərbaycan vətəndaşı qovulub, onların hüquqları tapdalanıbdır. Bildirdim ki, əgər siz insan hüquqlarının pozulduğuna, tapdalandığına görə bu cür qərar qəbul etmisinizsə, gəlin görün, kim kimin hüquqlarını tapdalayıb, pozub. Siz bunu araşdırın” [3, s. 123]. Ali Baş Komandan İlham Əliyev 2022-ci ilin sentyabr ayında Özbəkistanda keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə çıxışı zamanı beynəlxalq sülhün yaradılması işindəki problemlərdən bəhs edərkən bildirmişdir: “Bəzi aparıcı beynəlxalq təşkilatların səmərəsizliyi narahatlıq doğurur. Bununla əlaqədar 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb edən dörd qətnaməsini qeyd etmək istərdim. Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə gün ərzində yerinə yetirildiyi halda, bizim vəziyyətimizlə bağlı qəbul olunmuş qətnamələr 27 il ərzində icra olunmamış qaldı. Azərbaycan Qarabağ münaqişəsini özü hərbi-siyasi yolla həll edib və Təhlükəsizlik Şurasının yuxarıda qeyd olunan qətnamələrinin icrasını təmin edib” [4].

Göründüyü kimi, ölkə başçısının da qeyd etdiyi kimi, həqiqətən də, konfliktin – işğalın uzun müddət davam etməsinə baxmayaraq, problemin həlli istiqamətində beynəlxalq hüququn işləməməsi səbəbindən ümid yalnız gücün tətbiqinə qaldı və müvafiq olaraq münaqişə müharibə yoluyla həll olundu. Fakt budur ki, Azərbaycanın siyasi rəhbərliyinin iradəsi və Azərbaycan ordusunun yüksək peşəkarlığı nəticəsində münaqişə həll olundu və o, tarixin arxivinə qovuşdu münaqişə sözü isə *“postmünaqişə”* termini ilə əvəz olundu. Lakin aydındır ki, regionda yeni çağırış kimi çıxış edən *“uzunmüddətli sülh dövrü”* və münaqişə edən tərəflər arasında Böyük sülhün əldə olunması məsələsi hazırda problematik görünür. Biz bu barədə yuxarıda nəzəri mülahizələr apardığımızdan onlara toxunmuruq. Məsələ həm də ondadır ki, həm regionda, həm də dünyada destruktivizmi təbliğ və müdafiə edən qüvvələr vardır. Bu isə sülhü tərənnüm edən tərəflər üçün ən ciddi maneədir. Yəni, söhbət həm də ondan gedir ki, burada Ermənistan və Azərbaycan arasında münaqişənin yalnız fiziki olaraq bitməsindən bəhs etmək – bu, işin yalnız bir tərəfidir. Söhbət

ondan gedir ki, məsələn, mifik tarixi keçmişə yönəlik, saxta erməni ideologiyasını dialoji təfəkkürdən çıxış edərək, “Azərbaycanın irəli sürdüyü dialoq platformaları kontekstində necə “müalicə” etmək olar” sualı indi qarşımızdadır? Bu həm də müasir fəlsəfəmizin ən aktual problemi kimi qarşımızdadır. Düzdür, beynəlxalq güclər, o cümlədən Rusiya tərəfi açıq etiraf edir ki, Qarabağ problemi Azərbaycanın daxili işidir. Bu o anlama gəlir ki, Xankəndi və ona bitişik ərazilərdə yaşayan ermənilər Azərbaycan vətəndaşlarıdırlar və onların hüquqları məhz Azərbaycan Respublikasının qanunları çərçivəsində həll olunmalıdır. İlk baxışda bunun həyata keçməsinə, həll olunmasına separatçı rejim imkan vermir. Lakin əsas problem bu deyil. Azərbaycan tərəfinin istər siyasi, iqtisadi, sosial və humanitar resursları və ölkə rəhbəri İ.Əliyevin siyasi liderlik xarizması imkan verir ki, bu resurslar hesabına Azərbaycan nəinki Xankəndidə yaşayan ermənilərin, hətta Erməinistanın belə, bütün problemlərini həll etmək iqtidarında olsun. Lakin problem ondadır ki, xarici havadarların və Yerevanın müdaxiləsindən dolayı Azərbaycan Xankəndidə yaşayan öz vətəndaşlarına konstitusiyamızın imkan verdiyi yüksək şəraiti yarada bilmir və s. Əlbəttə, mütəxəssislər gözəl anlayırlar ki, biz nəyə işarə edirik. Burada söhbət dialoq mədəniyyətinin yaratdığı imkanlar, yeni çağırışlar kontekstində mifik erməni ideologiyasının dəyişdirilməsindən, zərərsizləşdirilməsindən gedir ki, bunu da fiziki anlamda həyata keçirmək elə də asan məsələ deyil. Lakin postmüharibə dövrünün reallıqları sübut edir ki, Azərbaycan bu yolda israrlıdır və onun ərazi bütövlüyünün təmin edilməsi və sülhün bağlanması məsələsi postkonflikt dövrünün əsas strategiyasından biridir.

Rusiya Federasiyasının iştirakı ilə Azərbaycan Respublikası və Ermənistan arasında imzalanmış 10 noyabr 2020-ci il üçtərəfli Moskva Bəyannaməsi münaqişənin (fiziki anlamda) bitməsi barədə ilk sənəd kimi tarixə düşdü. Bu sənəd rəsmi olaraq 30 illik münaqişə dövründə ilk dəfə Ermənistanın həm fiziki, hərbi, həm də mənəvi, siyasi, ideoloji olaraq məğlubiyyətini təsdiq etmiş oldu. “Postmünaqişə” termininin meydana gəlməsini təsdiq edən “Moskva Bəyannaməsi”ndən sonra regionda yeni reallıqlar meydana gəldi. 2021-ci il iyunun 15- də Şuşa Bəyannaməsinin imzalanması isə bir növ Azərbaycanın siyasi rəhbərliyinin həyata keçirdiyi strateji hədəfin 2021-ci ilin strateji kulminasiya nöqtəsi kimi tarixə düşdü. Fakt odur ki, Azərbaycanın qələbəsi nəticəsində regionda sülhün əldə edilməsi işində yeni reallıqlar və onun yaratdığı siyasi, hərbi, iqtisadi, tarixi-coğrafi mənzərə indi həm nəzəri anlamda, həm də praktiki olaraq regionda marağı olan tərəfləri sülh axtarışına sövq etməkdədir. Lakin məsələ ondadır ki, Ermənistan hal-hazırda müxtəlif ritorika ilə çıxış edərək sülhün bağlanmasını hər vəchlə əngəlləyir və demək olar ki, məğlub olmasına baxmayaraq, yenə də əvvəlki spekulyativ oyunlarından əl çəkmir. Ermənistan tərəfi mütəmadı olaraq sərhəd zonalarında atəşkəsi pozur, ən müxtəlif təxribatlarla çıxış edir. Azərbaycan Prezidenti cənab İ.Əliyevin Özbəkistanın paytaxtında keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının növbəti sammitində qeyd etdiyi kimi, “Azərbaycan Ermənistana ölkələrin bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınmasına əsaslanan sülh müqaviləsi üçün beş əsas prinsip təqdim edib. İndi biz ilkin şərtlər və süni ləngimələr olmadan sülh sazişi layihəsi üzərində işə başlamalıyıq” [4]. Bu, faktdır və Azərbaycan tərəfi ən yüksək şəkildə, hal-hazırda həm Qarabağ, həm də Şərqi Zəngəzur iqtisadi rayonu ərazisində ən yüksək keyfiyyətli kommunikasiya vasitələrini bərba etməklə, yaxın dövrlərdə tərəflərin qarşılıqlı olaraq pozulmuş qonşuluq prinsiplərini bərpa etmək əzmini nümayiş etdirir. “Lakin, təəssüf ki, bu il (2022- ci il) sentyabrın 13-də Ermənistan Azərbaycanla dövlət sərhədində genişmiqyaslı hərbi təxribat törətmişdir. Azərbaycan silahlı qüvvələri bu təxribatın qarşısını qətiyyətlə almışdır. Ermənistanın bu təxribatı iki ölkə arasında normallaşdırma prosesinə böyük bir zərbədir. Buna görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür” [4].

Məsələ ondadır ki, indi hər kəsə, o cümlədən münaqişəni uzun müddət dəstəkləyən tərəflərə də məlumdur ki, Azərbaycanın Zəfəri uzünmüddətli sülhün əldə edilməsi üçün fundamental şans yaratmış və bu reallıq regional sülhün əldə edilməsi işində yeni bir postulat rolunu oynamaqdadır. Ancaq problem ondadır ki, Azərbaycanın artıq qısa bir zaman kəsimində üzərinə düşən öhdəliklərin həyata keçirilməsində yüksək əzm nümayiş etdirməsinə baxmayaraq (bərpa-quruculuq, yeni yolların çəkilməsi və s.), müşahidələr göstərir ki, Ermənistanın bir tərəfdən, “sülh xatirinə” “sülh” masasından imtina etməməsi, digər tərəfdən də sülhə dolayısıyla etimadsızlıq nümayiş etdirməsi və

(Kəlbəcərin, Laçının, Gədəbəyin və s. Ermənistan tərəfindən atəşə tutulması) revanşizmə meyillənməsi, havadarlarının dəstəyinə arxalanaraq Böyük sülhün əldə edilməsi işini ciddi şəkildə çətinləşdirir. Ən başlıca problemlərdən biri ondadır ki, uzun müddət münaqişəni alovlandıran erməni diasporunun yenidən aktivləşməsi ilə yanaşı, Avropa Birliyinin də mənasız "Minsk qurupu"nu canlandırma cəhdləri postmünaqişə dövründə sülhün əldə edilməsi *"reseptinin"* elə də asan olunmayacağını göstərir. Hətta siyasi, hərbi və b. ekspertlərin bəzi hallarda bu münaqişənin yenidən alovlanmasına, bəzilərinə görə isə illərlə uzanmasına işarələr etməsi göstərir ki, Ermənistanın "mifik arzuları" səbəbindən Qafqazda Böyük sülhə nail olunması problem olaraq qalır.

Lakin məsələnin digər tərəfi də var: düşməni sülhə gətirmək mexanizmi heç vaxt tükənmir və bu inam Azərbaycan tərəfinə sülhün daha rasional, praqmatik, pozitiv, siyasi, ideoloji, xüsusilə siyasi-fəlsəfi-humanitar anlamda işlənməsini, metodoloji olaraq axtarışının dərinləşməsini real çağırış kimi qarşısına qoyur. Yuxarıda qeyd olundu ki, indi Böyük sülhün bağlanması üçün tarixi şərait, yeni əlverişli stiuasiya mövcud olsa da, ona ciddi əngəl olmaq istəyən qüvvələr də vardır və onlar nəinki sülhü dəstəkləmək görüntüsü yaradırlar, əksinə, bu görüntünü elə metodlarla "humanistləşdirirlər" ki, bu da münaqişənin yenidən alovlanmasına şərait yaratmış olur. Ancaq düşmən tərəf etiraf etməsə də, digər bütün tərəflərə yaxşı məlumdur ki, Azərbaycan nəinki regionda, o cümlədən dünyada yeni bir platformanın – dialoq mədəniyyətini özündə ehtiva edən platformanın həyata keçirilməsində israrlıdır və bu əsasdan çıxış edərək o, Zəngəzur dəhlizinin açılmasına nail olmaqla yanaşı, gec-tez Böyük sülhə də nail olacaqdır. Fakt odur ki, bunun üçün Azərbaycanın uzaq olmayan tarixi təcrübəsi vardır və bu təcrübə hal-hazırda öz strateji əhəmiyyətini qorumaqla yanaşı, yenidən regionda münasibətlərin yüksək şəkildə tənzimlənmə üsulu kimi postmünaqişə dövründə də tətbiq edilə bilər. Bu təcrübənin adı Azərbaycan Paradiqmasıdır. Əslində, Ermənistanda bu yeni regional konfiqurasiyanı bir çox hallarda anlayanlar mövcud olsa da, lakin destruktiv hamilər və bəzi qüvvələr Böyük sülhə və konsensusa daima mane olurlar, bu da Cənubi Qafqazda sülhü faktiki olaraq ləngidir. Yəni, əslində, bu hal həm də Rusiya - Türkiyə münasibətlərinin gələcəyi üçün ciddi təhlükə mənbəyi hesab edilə bilər. Çünki bir çox hallarda bəzi qüvvələr regionda Rusiya – Türkiyə əməkdaşlığını deyil, onların münaqişəsini istəyirlər. Biz öz çıxış və yazılarımızla dəfələrlə bunu qeyd etmişik ki, "Rusiyanın iqtisadi maraqları Türkiyə və türkdilli dövlətlərlə münasibətlərin yaxşılaşdırılmasını tələb etsə də, Türkiyə ilə ənənəvi düşmənçilik hələ də ön plana çəkilir" [5, s. 246 ]**.** Bu, istər strateji, istərsə də taktiki anlamda düzgün xətt deyildir. Məsələ ondadır ki, indi problemlər küll halında bilik və modern cəmiyyətin imkanları və perspektivləri kontekstindən analiz edilməlidir. Bu kontekstdə isə nəzəri mənalandırma asanlıqla sübut edir ki, dünyanın gələcəyi əməkdaşlıq və qonşuluq prinsiplərində sülh və təhlükəsizliyə apellyasiyadan başlanır. (Rusiya-Ukrayna müharibəsi də əslində regional böhranın pik nöqtələrindəndir və onun perspektiv nəticələri uzun müddət öz ağır təsirlərini göstərəcəkdir). Düzdür, Azərbaycanın Ermənistan üzərində qələbəsi bu istiqamətdə düşüncələr üzərində birmənalı xətt çəkməsə də, qeyd olunan Rusiya-Türkiyə qarşıdurmasına tərəfdar çıxanların da baxışlarında korrektələrin aparılmasını zəruri etdi. Hər halda bir şey aydındır ki, güclü və qalib olan tərəf olmasına baxmayaraq, Azərbaycan sülhü dəstəkləyir və bölgədə yeni əməkdaşlıqların reallaşması üçün ciddi təşəbbüslər irəli sürür və dünyanın nəqliyyat, enerji dəhlizlərinin stabilləşməsi işinə öz töhfəsini verməyə çalışır. Bütün bunlar sübut edir ki, Azərbaycan modern sivilizasiyanın çağırışlarını düzgün analiz edir və onun strateji istiqamətinin əsasını dialoq mədəniyyəti və onun formalaşması təşkil edir. Yaxın 30 illik təcrübə – Azərbaycanın siyasi rəhbərliyinin siyasi, iqtisadi, sosial, humanitar, hərbi sahədə həyata keçirdiyi davamlı strateji kursu sübut etdi ki, Azərbaycan tərərəfi əsas prioritet kimi, həm regional səviyyədə, həm də beynəlxalq miqyasda sülhü tərənnüm etmək işini özünün həyati prioriteti seçmişdir. Burada tarixi təcrübə, yeni beynəlxalq reallıqlar, strateji tərəfdaşlıqlar, yalnız insan inkişafını, dialoq və həmrəyliyi, birgəyaşayış ənənələrinin yaşadılmasını nəzərdə tutan məsələlər dinlərin, mədəniyyətlərin, sivilizasiyaların qarşılıqlı ünsiyyəti prioritet kimi çıxış edir. Təsadüfi deyildir ki, " 20-ci əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və

Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya-Qafqaz-Avropa ticarət dəhlizinin - Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu” [3, s. 392].

20 mart 2021-ci il tarixində Prezident İlham Əliyev Novruz bayramı münasibətilə işğaldan azad edilmiş Şuşa şəhərindən Azərbaycan xalqına müraciəti zamanı bildirmişdir: “Biz Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri beynəlxalq müstəvidə dünya ictimaiyyətinə çatdırmalı idik və çatdıra bildik. Beynəlxalq təşkilatlarla fəal işləyirdik və bizə sərf edən, həqiqəti əks etdirən, beynəlxalq hüququ əks etdirən, ona əsaslanan vacib qərar-qətnamələri qəbul etdirə bildik. Bu qələbəmizin hüquqi əsası idi. Haqq-ədalətin bərpasının hüquqi əsası idi. Biz iqtisadi güc toplamalı idik və topladıq. Son illər ərzində Azərbaycan qədər sürətlə inkişaf edən ölkə, bəlkə də, dünyada yoxdur. Biz hərbi güc toplamalı idik və bu istiqamət birinci dərəcəli vəzifə idi. Təsadüfi deyil ki, mənim prezidentlik dövrümdə hərbi xərclər hər zaman birinci yerdə idi və bunu mən deyirdim, bəyan edirdim ki, biz hərbi xərclərimizi bundan sonra da artırmalıyıq. Biz müharibəyə hazırlaşmalıyıq, hazırlaşırıq. Ancaq deyirdim bütün dünyaya və deyirdim ki, əgər düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz düşməni qovacağıq. Belə də oldu” [1, s. 108 ].

İstər 10 noyabr 2020-ci il Moskva, istərsə də 15 iyun 2021- ci il Şuşa Bəyannaməsinin məhz şüurlara verdiyi mesajlardan biri belədir: Azərbaycan həm beynəlxalq müstəvidə, həm də regionda ciddi müttəfiqlərə, tərəf-müqabillərə malik ölkədir və onun H.Əliyev tərəfindən təsbit edilmiş və hazırda Ali Baş Komandan İ.Əliyev tərəfindən həyata keçirdiyi strategiyanın əsas xəttini bəşəri ortaq dəyərlərə, tarixi ənənələrə, milli maraqlara, sülhə və birgəyaşayışa söykənməsi təşkil edir. Lakin bəla ondadır ki, erməni ideologiyası və 30 il ərzində Ermənistanın siyasi rəhbərliyi bu strategiyanı dərk edə bilmədi. Müşahidələr göstərir ki, Böyük sülh bir kənara qalsın, heç Zəngəzur dəhlizinin qlobal dünya dövlətlərinin marağında olmasını və onun Ermənistan üçün də həyat dəhlizi ola biləcəyinin fəlsəfəsini indiki Ermənistan hakimiyyəti anlamır. Hazırda revanşizmə meyillilik də məhz həmin dərketməzlikdən irəli gəlir. Digər bir problem ondadır ki, dünyada “Azərbaycan və Türkiyəyə qarşı ənənəvi düşmənçilik mövqeyi, müntəzəm olaraq “erməni genosidi” mövzusunun müxtəlif ölkələrin parlament müzakirəsinə çıxarılması Ermənistanın qonşu dövlətlərlə münasibətini daha da gərginləşdirir və regionda sülhün sarsılmasına səbəb olur” [5, s. 246].

**Nəticə:** Müasir regional münaqişə və qlobal tendensiyanın dinamikasından çıxış edərək yuxarıda qeyd etdik ki, hazırda “sülhə nail olma işi” asan məsələ deyildir və tarixin istər nəzəri anlamda, istərsə də praktiki formada müşahidəsi göstərir ki, düşmən tərəfi üzərində qazanılan fiziki qələbə, düşmənin məğlubiyyəti, onun hərbi, ideoloji, siyası resurslarının məhv edilməsi heç də Böyük sülhü ortaya gətirməkdə yetərli deyil. Biz qəbul etməliyik ki, sülhün əldə edilməsi ciddi bir əxlaqi kateqoriyadır, burada etik məsələlərin həlli və tətbiqi son dərəcə zəruridir. Bu məsələ tarixən açıq olduğu kimi, *“bilik və modern”* cəmiyyətin hazırda da problematikası olaraq qalır. Bu onu göstərir ki, həqiqətən də, Yer üzündə dayanıqlı sülhün əldə edilməsi məhz fəlsəfi problemdir. Müşahidələr göstərir ki, “insanların etik mühakimələrə etibar etməməsinin səbəbləri üzərində düşünərkən qeyd etmək lazımdır ki, fəlsəfi etika keçmişdə həmişə real praktikada, mənəvi tərbiyə sahəsində iştirak edirdi. Bu gün isə o öz mövqelərini və cəmiyyətin etibarını itirmiş durumdadır” [7, s. 82 ]. Bu baxımdan postmünaqişə dövründə münaqişə və müharibələrin nəzəri anlamda yenidən sosial, fəlsəfi, siyasi, iqtisadi, humanitar, mənəvi, əxlaqi və s. fəlsəfi interpretasiyasını aparmaq, göründüyü kimi, vacibdir və bu, mübaliğəsiz desək, müasir fəlsəfi təfəkkür üçün zərurət kimi çıxış edir. Sülhə nail olmaq üçün müharibə təkrar olunmalıdırmı? Bu sualın cavabını dahi siyasətçi sanki üzun illər əvvəl mahiranə şəkildə hər kəs üçün açıq şəkildə vermişdir. “Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması və qorunub saxlanılması bizim müqəddəs vəzifəmizdir. Biz hamımız birlikdə, siz gənclərlə, bütün Azərbaycan xalqının iradəsi ilə bu vəzifəni yerinə yetiririk və yetirəcəyik. Ancaq bunların hamısını sülh yolu ilə həll etmək istəyirik. Görülən işlər, aparılan danışıqlar, beynəlxalq təşkilatlar tərəfindən irəli sürülmüş bəzi təkliflər buna ümid verir. Bunların hamısı indi həyata atılan gənclərimizin ömrünün daha da xoşbəxt olmasını təmin etmək üçün lazımdır. Qoy gənclər bundan sonra bir də qanla, müharibə ilə, döyüşlə rastlaşmasınlar” [3, s. 121]. Məqalə də məhz bu zərurətdən yazılmışdır. Postmünaqişə dövründə münaqişə tərəflərini ortaq dəyərlər ətrafında konsolidasiya edərək *Böyük sülhü* təmin etmək işində nəzəri mülahizələri

diskursa, polemikaya, “dialoq platformalarına” çevirmək və müharibənin şüurlarda yaratdığı travmaları terapiya üsulu kimi yenidən mənalandırmaqla, dialoq mədəniyyəti və dialoq platformalarının insani münasibətlərdə zəruriliyini diqqətə çəkmək.

**İstifadə olunmuş ədəbiyyat**


1. Böyük qayıdış Prezident İlham Əliyevin işğaldan azad edilmiş rayonlara tarixi səfərləri. I kitab “Şərq-Qərb” nəşriyyatı, 2021-ci il, 332 səh.
2. Dygin A. G. “Geosofiyaya giriş: sivilizasiya və onların loqosları. [tərcümə edən, H. Babayev] Elm və təhsil nəşriyyatı, Bakı, 2018, 88 səh.
3. Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. B., Azərnəşr, 2004, 432 səh.
4. Əliyev İ. Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Sammitində İlham Əliyevin nitqi. https://president.az/az/articles/view/57276
5. Xəlilov S.S. Sivilizasiyalararası dialoq. Bakı: "Adiloğlu" nəşriyyatı, 2009, 256 s.
6. Mahatma Q. “Bütün insanlar qardaşdır”, Bakı, “Sivilizasiya və Maarifçilik” İctimai Birliyi, 2011, 246, s
7. Məmmədzadə İ. Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar. Təmayüllər. Perspektivlər. Bakı- “Elm və təhsil,”-2019, 200 səh.
8. Философия Мартина Хайдеггера и современность. Ред. kолл. Мотрошилова Н. В.[ответс. ред.] Бибихин В.В. и. д. – М.: Издательство “Наука”, 1991. –253 с.
9. Vestfaliya_sülhü https://az.wikipedia.org/wiki/


## НАСЛЕДИЕ ВЕЛИКОГО ЛИДЕРА Г.А. АЛИЕВА - КАК ЗАЛОГ МИРА В ИНТЕЛЛЕКТУАЛЬНОМ ОБЩЕСТВЕ: ТЕОРЕТИЧЕСКИЙ ПОДХОД К КОНФЛИКТУ ИЗ КОНТЕКСТА ДИАЛОГА

**Шолат Зейналов**

**Резюме.** Статья посвящена изучению противоречий, возникающих в современном мире в контексте конфликтов и войн. Модель стабильности и безопасности Азербайджана является прогрессивной моделью, благодаря наследию великого лидера Гейдара Алиева, сильной государственной концепции и попытке разрешения противоречий, которые должны решаться в контексте диалога.

**Цель:** привлечь внимание к проблеме разрешения конфликтов и достижения мира в обществе знаний.

**Методология:** статья исследуется с использованием научного метода, сравнительного анализа, эмпирического, описательного, историко-аналитического метода.

**Научная новизна:** в научных исследованиях культура общения со множеством противоречий современного общества изучается с точки зрения контекста.

**Ключевые слова:** знание, конфликт, война, теоретические подходы, «современность», социальные противоречия, диалог, мир

## LEGACY OF THE GREAT LEADER HEYDAR ALIYEV AS A GUARANTEE OF PEACE IN AN INTELLECT SOCIETY: A THEORETICAL APPROACH TO THE CONFLICT FROM THE CONTEXT OF DIALOGUE

**Sholat Zeynalov**

**Abstract.** The article is devoted to the theoretical study of regional contradictions that arise in the modern world in the context of conflicts and wars, the culture of dialogue. The study emphasizes that the paradigm of peace and security presented by Azerbaijan to the world is a program towards resolving contradictions in an intellectual society, and the immutability of the

dialogue quot; formula quot; implemented by our country in resolving various conflicts between peoples, states and societies is of great value. Considering the problem from a theoretical point of view, it is noted that attempts to resolve the contradictions that arise in the system of modern relations should become the strategic goal of modern society in the context of dialogue, and research in the direction of its solution should be activated and accelerated.

**Purpose:** To draw attention to the problem of resolving conflicts and achieving peace in the intellect society.

**Methodology:** The article has been studied using the scientific method, comparative analysis, empirical, descriptive, historical and analytical methods.

**Scientific novelty:** In scientific research, the culture of communication with many contradictions of modern society has been studied from the point of view of the context.

**Keywords:** Knowledge, conflict, war, theoretical approaches, quot modernity quot; social contradictions, dialogue, peace.

**Rəyçi: f.e.d., prof. İlham Məmmədzadə**